*22 noyabr Azərbaycan Respublikası ədliyyə işçilərinin peşə bayramıdır*

# Dövlətçilik ənənəsinə sadiq olan ədliyyəmiz

***Bir əsrdən artıq dövlətçilik ənənəsi olan Azərbaycan Respublikasının ədliyyə sisteminin xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır. Ədliyyə Nazirliyi Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gün - 1918-ci il may ayının 28-də təsis edilmişdir.***

1920-ci il aprel ayında Sovet Rusiyasının XI ordusu tərəfindən Azərbaycan işğal edildikdən sonra Respublika İnqilab Komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı yaradılmışdır.

Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən və ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra respublikamızda ədliyyə sisteminin inkişafı onun rəhbərliyi ilə əsaslı surətdə tə-




min edilmişdir.

Ulu öndərin 11 noyabr 2000-ci il tarixdə imzaladığı Sərəncamla Müstəqil Azərbaycan Ədliyyə Nazirliyinin ilk Əsasnaməsinin təsdiq edildiyi gün 22 noyabr Azərbaycan Respublikası ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir.

2006-cı ildə ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı bir sıra mühüm sənədlər qəbul olunmuş, strukturu təkmilləşdirilmişdir. Dövlət başçısının 18 aprel 2006-cı il tarixli Fərmanı ilə Ədliyyə Nazirliyi haqqında yeni əsasnamə təsdiq edilərək ona hüquq-mühafizə orqanı statusu verilmiş, habelə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının 26 may 2006-cı il tarixli Qanunu qəbul olunmuş və ölkə Prezidenti tərəfindən "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli Fərman imzalanmışdır.

Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında bu gün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi qanunvericiliklə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, ədliyyə sahəsində dövlət siyasətinin tənzimlənməsini uğurla həyata keçirir.

**Zinyət BAĞIROVA,**
**Qəbələ Rayon Qeydiyyat Şöbəsinin rəisi.**

# Konstitusiya əsas qanunumuzdur

Düz 24 il öncə 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul olunub. Respublikamızın əsas qanunun qəbul edildiyi həmin gün ölkəmizdə hər il bayram edilir.

Rayonun yaşayış məntəqələrində, idarə və müəssisələrdə, təhsil səhiyyə və mədəniyyət ocaqlarında Konstitusiya Günü qeyd olunub.

# Xatirələr dilə gətirilib

Rayon ağsaqqallar şurası Dövlət Bayrağı Gününü təntənə ilə qeyd edib. Noyabr ayının 9-da ağsaqqalların bir qrupu ağsaqqallar şurasının iqamətgahı önünə toplaşıb. Əllərində milli suverenliyimizin rəmzi olan Dövlət bayraqları və gül-çiçək dəstələri tutmuş ağsaqqallar iqamətgahdan şəhərdəki Heydər Əliyev Parkına qədər məsafəni yürüşlə başa vurublar.

Daha sonra ağsaqqallar ulu öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzərək ümummilli liderə ehtiramlarını bildiriblər. Ağsaqqallar ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə üçrəngli bayrağımızın yenidən dövlət statusu qazandığı 1990-cı ili, o dövrdə baş verən hadisələri xatırlayıblar.

O günlərin canlı şahidləri Heydər Əliyevin dövlətçiliyimizin, onun rəmzlərinin, o cümlədən Dövlət bayrağımızın bərpası sahəsindəki misilsiz xidmətləri barədə söhbət açıblar. Çay süfrəsi arxasında davam edən tədbir şəhər sakinləri tərəfindən də təqdirlə və maraqla izlənilib.

**"Qəbələ"**

# KOB könüllüləri işlə təmin edilib

Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (KOBİA) könüllülük fəaliyyətini uğurla başa vurmuş daha 5 "KOB könüllüsü" müxtəlif sahələrdə əmək fəaliyyətinə başlayıb.

"KOB Dostu"nun Qəbələ-Oğuz ofisində fəaliyyət göstərən könüllülər - Rəfayət Bayramova, Aysel Calalova, Teymur Alışanov və Elvin Məmmədov müvafiq olaraq Qəbələdə "ASAN xidmət" Mərkəzində, Gənclər Fondu yanında Gənclərin İnkişaf və Karyera Mərkəzində və dövlət aqrar inkişaf mərkəzində işlə təmin ediliblər.

**"Qəbələ"**

# Müstəqilliyimizin simvolu–Dövlət bayrağımız

9 noyabr Dövlət Bayrağı Günü ölkəmizin hər yerində olduğu kimi Qəbələ rayonunda da təntənəli şəkildə qeyd olunub. Rayon icra hakimiyyətinin, gənclər və idman idarəsinin təşkilatçılığı ilə keçirilən ümumrayon tədbiri xüsusilə yaddaqalan və maraqlı olub. Bundan başqa rayonun bütün təhsil, səhiyyə və mədəniyyət müəssisələrində, Qəbələ Dövlət Peşə Təhsili Mərkəzində, Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində, Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində digər idarə, müəssisə və təşkilatlarda Dövlət Bayrağı Gününə həsr olunmuş tədbirlər keçirilib.

Dövlət Bayrağı Günü ərəfəsində və həmin gün Heydər Əliyev Mərkəzi ardıcıl tədbirlər məkanına çevrilib, bura gələn ziyarətçilərin sayı çox olub.

**«Qəbələ»**

# Müstəqilliyə gedən yolun başlandığı gün

1989-cu ilin 17 noyabrında xalqımız o zamanki SSRİ rəhbərliyinin Ermənistan SSR-in Azərbaycanın ayrılmaz guşəsi olan Dağlıq Qarabağa qarşı təcavüzkar hərəkətlərinə, ermənilərin seperatçılıq siyasətinə loyal münasibətinə, daha doğrusu işğalçını dəstəkləməsinə cavab olaraq meydanlara axışdı. Xalqın bir tələbi vardı ermənilər Dağlıq Qarabağı ilhaq etmək siyasətindən əl çəksinlər, SSRİ rəhbərliyi Azərbaycana qarşı ədalətli mövqe tutsun. Həmin günlər Azərbaycan xalqı bir yumruq kimi birləşərək öz etiraz səsini imperiya rəhbərliyinə və bütün dünyaya çatdırdı. Xalqımızın ərazi bütövlüyü və müstəqillik uğrunda başladığı mübarizənin ilk günü tarixə "Dirçəliş Günü" kimi düşdü.

Rayonumuzda Dirçəliş Günü geniş şəkildə qeyd olunub.

**«Qəbələ»**

# Bayrağımız qürur mənbəyimizdir

Heydər Əliyev Mərkəzində Dövlət Bayrağı Gününə həsr olunmuş «Bayrağımız–qürur mənbəyimizdir» adlı ədəbi-bədii tədbir keçirilib.

Mərkəzin kiçik elmi işçisi Aygün Məmmədova Azərbaycan Demokratik Respublikası hökuməti (ADR) tərəfindən 9 noyabr 1918-ci ildə üçrəngli bayrağımızın dövlət rəmzi kimi təsdiq edilməsi barədə tədbir iştirakçılarına məlumat verib.

Qeyd olunub ki, bayrağın rəngləri türkçülüyü, İslamı və müasirliyi özündə ifadə edib. ADR 28 aprel 1920-ci il tarixdə xarici müdaxilə və daxili çəkişmələr nəticəsinbdə süquta yetirildən sonra milli dövlətimizin rəmzi olan 3 rəngli bayraq da dəyişdirilib. Bildirilib ki, XX əsrin əvvəllərində qurulan ADR-in əsas rəmzi sayılan 3 rəngli, ay-ulduzlu bayraq 70 ildən sonra, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə bərpa edilib.

Ulu öndərin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 17 noyabr 1990-cı ildə bu barədə qərar qəbul edib və həmin bayraq muxtar respublikanın dövlət bayrağı statusunu alıb. Eyni zamanda Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Sovetinə üçrəngli



bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında təkliflə müraciət edib.

5 fevral 1991-ci ildə Azərbaycan Respublikasının Ali Soveti üçrəngli bayrağın Azərbaycan Respublikasının Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verib. Həmin vaxtdan etibarən bu bayraq Azərbaycan Respublikasının Dövlət bayrağı statusunu daşıyır və dövlətimizin suverenlik rəmzi sayılır.

Natiq Prezident İlham Əliyevin noyabrın 9-nun ölkəmizdə Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilməsi barədə 18 noyabr 2009-cu il tarixdə Sərəncam imzaladığını və həmin tarixdən xalqımız tərəfindən hər il bu günün təntənə ilə bayram edildiyini diqqətə çatdırıb.

Tədbirdə iştirak edən məktəblilər Azərbaycanın üçrəngli Dövlət bayrağına həsr olunmuş şeirlər söyləyiblər.

**Sədaqət KAZIMOVA,**
**mərkəzin əməkdaşı.**

# Azərbaycan bəstəkarlarının əsərləri ifa olunmuşdur

Qəbələ İncəsənət Məktəbində Azərbaycanın Dövlət Bayrağı Günü münasibəti ilə tədbir keçirilmişdir.

Tədbir məktəbin xor kollektivinin ifasında Azərbaycan Respublikasının Dövlət Himni ilə açılmışdır.

Daha sonra şagirdlərin ifasında bayrağımıza, Vətənimizə həsr olunmuş şeirlər və mahnılar səsləndirilmiş, Azərbaycan bəstəkarlarının əsərləri ifa olunmuşdur.

Tədbiri xoreoqrafiya sinfinin şagirdləri maraqlı rəqs nömrələri ilə yekunlaşmışdır.

**Süsən RÜSTƏMLİ,**
**məktəbin fortepiano sinfinin şagirdi.**

# Növbəti ağacəkmə kampaniyası keçirilib

***Ekoloji balansın bərpası, ətraf mühitin qorunması və yeni yaşıllıqların salınması Qəbələ Suvarma Sistemləri İdarəsinin diqqətdə saxladığı ən mühüm məsələlərdəndir.***

Noyabrın 12-də idarənin kollektivi tərəfindən Nohur gölü ərazisində növbəti ağacəkmə kampaniyası keçirilib. Ağacəkmə aksiyasına 100 nəfərdən artıq işçi və idarənin maşın-mexanizmləri cəlb edilib. Keçirilən tədbirlər zamanı ərazi kollardan təmizlənib, gölün mühafizə zolağındakı qurumuş ağaclar və kənar əşyalar yığışdırılaraq götürülüb.

Su hövzələrində ekoloji təmizliyin daha da yaxşılaşdırılması, yaşıllıqların artırılması, ağac əkininin təşviqi məqsədilə keçirilən ağacəkmə kampaniyasında 300-dən çox gilas, alça və digər müxtəlif növ meyvə ağacları əkilib.

İdarənin rəisi Qüdrət Həmidov müxbirimizlə müsahibəsində bildirib ki, ekoloji balansın bərpa-



sı, təbii mühitin qorunması, atmosferin oksigenlə zənginləşdirilməsi məqsədilə təşkilat tərəfindən daim yaşıllaşdırma istiqamətində vacib addımlar atılır, ağacəkmə kampaniyaları keçirilir. Bu günə kimi rayonun müxtəlif yerlərində xeyli müxtəlif cinsli ağacların əkildiyini vurğulayan idarə rəisi bu sosial aksiyanın bundan sonra da davam edəcəyini deyib.

Yaza hazırlıq məqsədilə Zalamqobu adlanan baş suvarma qurğusunda təmir-bərpa işlərinin başa çatdırıldığını və taxıl sahələrinin arat olunması üçün fasiləsiz olaraq su verildiyini qeyd edən Qüdrət Həmidov hazırda çay məcralarının təmizlənməsi, yaşayış məntəqələrinin baş suvarma kanallarının təmiri istiqamətində müvafiq işlərin görüldüyünü söyləyib.

Bütün texnikaları saz vəziyyətə gətirilən idarədə su kanallarının təmiri işlərinə 4 ədəd "Hyundai" markalı ekskovator, 5 ədəd buldozer cəlb edilib.

**"Qəbələ"**